# Fərqli düşüncə

Xüsusi daycest buraxılışı

Xəbər və fikir jurnalı • №10 (50) • 09.05.2011



Bəxtiyar Hacıyev: **“Özümü 2 illik həbsə hazırlayıram”** səh.2

**Avropaya heroin... Azərbaycandan?** səh.4

**5 nəfər dindar barəsində cinayət işi açılıb** səh.6

**"Бить розгами, пока не поумнеет"** səh.7

Astaralı sürücü: **«Məni təhqir edib, təpik atdılar...»** səh.9

**Azərbaycanda müsəlmanlar üçün halal bank** səh.12

Eurovisionlu Nikki: **“Mən 2 uşaqlı evdar qadın idim”** səh.15


## «Oğuz-Qəbələ-Bakı» Su Kəməri haqda gözlənilməz iddialar



səh.5

Mirvari Qəhrəmanlı: **“1 milyard dollarlıq kəmərin açılışı olsa da, tam hazır deyil”**

## Ermənistan cəbhə xəttində itkilərdən danışır

Dağlıq Qarabağda cəbhə xəttində baş verən atışma zamanı 3 erməni əsgəri ölüb. Bu haqda Xankəndindəki hərbi dairələr məlumat verib. Mayın 1-də tanınmayan «Dağlıq Qarabağ Respublikası»nın Müdafiə Nazirliyindən bildiriblər ki, ölən əsgərlərdən biri - Vazgen Baxşiyan aprelin 29-da, digər ikisi isə ondan sonrakı gün öldürülüb.

səh.14




Cabbar Savalanlının anası: **«Dilini fərağat qoysaydı, tutmazdılar»** səh.2

**Korrupsiyaya qarşı mübarizə dayanıbmı?** səh.4

**Bin Ladenin qonşuları danışır...** səh.10

# Mətbuat Azadlığı Gününə aşağı reytinqlə


Mehman Əliyev

**3 May - Beynəlxalq Mətbuat Azadlığı Gününü Bakıda bir qrup media təmsilçisi «Monitor» jurnalının altı il əvvəl qətlə yetirilən baş redaktoru Elmar Hüseynovun məzarı başında qeyd etdi. Elmar Hüseynovun qatilləri hələ də tapılmayıb.**

*«Turan» İnformasiya Agentliyinin rəhbəri Mehman Əliyev deyir:*

- Biz ənənəvi olaraq burda toplaşırıq, Mətbuat Azadlığı Gününü bu cür qeyd edirik. Son illərdir həmişə eyni simalar, eyni adamlar bura toplaşır. Hesab eləyirəm ki, bu, çox yaxşıdır ki, biz azad söz uğrunda mübarizəmizi davam etdiririk. Baxmayaraq ki, ildən-ilə vəziyyət çətinləşir.

Azərbaycan 196 ölkə arasında 171-ci yeri tutub. Azərbaycan mediası 3 May - Beynəlxalq Mətbuat Azadlığı Gününü belə bir reytinqlə qarşılayır. Mətbuat Şurasının sədri Əflatun Amaşov «Freedom House» təşkilatının hesabatına münasibət bildirərkən deyib ki, ölkə mediasının problemləri var, amma 171-ci yerdə dayanmasına səbəb ola biləcək qədər də vəziyyət pis deyil.

**TÜRKİYƏNİN REKLAM MODELİ**

Ə. Amaşov ölkə mediasının əsas problemini iqtisadi çətinlikdə görür və deyir ki, *onlar hakimiyyətə bir neçə təklif veriblər:*

- Zənnimizcə, reklam bazarını öyrənmək və genişləndirmək üçün tədbirlər görmək lazımdır. Türkiyədə belə bir təcrübə var ki, rəsmi reklamlar siyasi mənsubiyyətindən asılı olmayaraq qəzetlərdə yerləşdirilir.

Biz bu təcrübəni öyrənmişik, bunun əsasında hazırladığımız təklifləri də Prezident Administrasiyasına təqdim eləmişik.

**«...ELƏ CƏZALANDIRIRLAR Kİ»**

*«Azərbaycanda söz azadlığı var, amma onun uğrunda dayanmadan mübarizə aparmaq lazımdır». Bunu isə «Ayna-Zerkalo» qəzetinin baş redaktoru Elçin Şıxlıdan eşidirik:*


Elçin Şıxlı

- Son zamanlar belə bir qənaətə gəlmişəm ki, söz demək istəyənin həmin vaxt ağzını yummasalar da, sonra onu qeyri-adekvat şəkildə cəzalandırırlar. Qəbul olunmuş qanuna sonradan elə əlavələr edirlər ki, demokratik qanun gəlib mürtəce halına düşür.

E. Şıxlı hesab edir ki, müşahidə olunan cəzalandırmalar jurnalistlərdə özünüsenzura hissini artırıb. Amma onun fikrincə, mətbuatın beynəlxalq reytinqlərdə aşağı yeri bölüşməsinin kökündə korrupsiya, rəqabətsiz mühit durur.

***Səadət Akifqızı***

# Bəxtiyar Hacıyev:
# “Özümü 2 illik həbsə hazırlayıram”

Həbsdə olan gənc fəal Bəxtiyar Hacıyevin məhkəmə prosesi mayın 5-də davam edib. Günortadan sonra davam edən hissəsində müdafiə tərəfi qaldırdıqları vəsatətlərlə bağlı qərardadların, protokolların surətlərinin təqdim olunmasını istəyiblər. Məhkəmə həmin sənədləri təqdim etməkdən imtina edəndən sonra Bəxtiyar Hacıyev və vəkilləri prosesin növbəti hissəsində - dindirmələrdə və çıxışlarda iştirak etməkdən imtina etdiklərini bildiriblər. Onlar bildiriblər ki, bununla baş verən qanunsuzluqlara etiraz edirlər.

Fasilə müddətində Bəxtiyarın zalda qalmasına vəkillərin tələbi ilə icazə verildi. Üzünü jurnalistlərə tutan Bəxtiyar özünü 2 illik həbsə hazırladığını bildirdi. Bəxtiyar Cabbar Savalanlıya verilən cəzaya da münasibət bildirdi:

*- Mənim məhkəmələrim sanki kukla teatrına oxşayır. Mən Azərbaycanın məhkəmə sisteminə güvənmirəm, tam ədalətsizdir. Cabbarın tutulması da təsdiqlədi ki, gəncləri çox incidirlər.*


Təravət Əliyeva

# C.Savalanlının anası:
# «Dilini farağat qoysaydı, tutmazdılar»

**«Cabbar dilini farağat qoysaydı, yaltaqlıq etsəydi, camaatla ayaqlaşsaydı, onu tutmazdılar». Bunu AzadlıqRadiosunun «İşdən sonra» proqramında narkotik saxlama ittihamı ilə 2 il 6 aylıq həbs cəzası almış Cabbar Savalanlının anası Təravət Əliyeva deyib: «Cabbarla görüşəndə dedim ki, niyə belə etdin? Mən 12 ildir səni təkbaşına saxlamışam. Heç kimin qarşısında əyilməmişəm. Məni niyə polislərin qarşısında əydin? Dedi ki, ana, bilməzdim məni belə şərləyərlər. Məni yuxarıdan tutdular».**

*T.Əliyeva deyir ki, Cabbar sözünü boğsaydı, deməsəydi, tutmazdılar:*

- AXCP üzvü olmasının qarşısını ala bilmədim. Dedim cəbhəçi olma, sözün gəldi ud. Dedi ölsəm də, uda bilmərəm, deyəcəm. Dedim bəs səni birdən tutdular? Dedi ki, tutarlar, tutarlar. Mən o əvvəl tutulan gənclərdən artıq deyiləm ki? Tutulacağam, sonra çıxacağam. Dedim mən sənin yanına gəlməyəcəyəm axı. Dedi gəlmə.

**- İndi getməyəcəksiniz yanına?**

- Mənim uşağım heç siqaret çəkmir, tində qalan uşaq deyil. Gedəcəyəm. Mən fəxr edirəm ki, mənim elə övladım var... Əvvəl hamı mənə pis baxırdı ki, Cabbarın cibindən narkotik tapılıb. Gizlənirdim hamıdan. İndi onlardan eləsi var deyir ki, kaş sənin balanın yerinə mənim balamı tutaydılar. Fəxr elə ki, sənin elə oğlun var...

***Xədicə İsmayılova, Kamran Mahmudov***

# HRW: Azərbaycan hökuməti tənqidçilərini susdurur

Mayın 4-də Azərbaycan məhkəməsi bir müxalif mövqeli sosial media fəalına narkotik saxlama saxta ittihamıyla iki il yarım iş kəsib. Mayın 3-də bir insan haqları müdafiəçisi 2010-cu il noyabr parlament seçkilərinə guya müdaxilə etdiyinə görə həbs olunub. Qərargahı Nyu-Yorkda yerləşən Human Rights Watch hüquq-müdafiə təşkilatı mayın 5-də bu barədə bəyanat yayıb. *"Azərbaycan hökuməti ölkədə tənqidi səsləri susdurmaq istəyir. Məqsəd Şimali Afrika və Yaxın Şərqdəki etirazların Azərbaycana yayılmasının qarşısını almaqdır,"* bəyanatda belə deyilir.

*"Son iki nümunə hökumətin tənqidi səsləri necə susdurmaq istəməsini göstərir. Avropa Şurasının üzvü olan bir dövlətin belə açıq-aşkar repressiya aparması adamı şoka salır".* Bunu isə Human Rights Watch-un Avropa və Orta Asiya üzrə direktor əvəzi Rachel Denber deyir.

**BİRİNCİ DƏFƏ DEYİL Kİ...**

Mayın 4-də Sumqayıt Şəhər Məhkəməsi AXCP gənclər təşkilatının üzvü, 20 yaşlı Cabbar Savalanlıya 2 il yarım iş kəsib. Savalanlının ittiham olunduğu narkotik saxlama ittihamını yerli hüquq müdafiəçiləri də əsassız, qondarma sayır, onun siyasi fəaliyyəti ilə bağlı olduğunu deyirlər. Savalanlı sosial şəbəkələrin fəal istifadəçisi olub, şəbəkələrdə hakimiyyət əleyhinə, onların istefasını tələb edən şərhlər yerləşdirib. Human Rights Watch xatırladır ki, hakimiyyət narkotik saxlama ittihamından tənqidçilərinə qarşı birinci dəfə deyil ki, istifadə edir. 2010-cu ildə jurnalist Eynulla Fətullayev də eyni ittihamla 2.5 il cəza alıb. Ondan əvvəlcə "Azadlıq" qəzetinin yazarı Mirzə Sakit həmin ittihamla üç iləcən həbs cəzası çəkib. Savalanlının vəkili Anar Qasımov Human Rights Watch-a deyib ki, məhkəmədən sonra yerli polis rəsmisi onu "dövlətin maraqları əleyhinə işlədiyi üçün" mümkün təzyiqlə hədələyib.

**O, DƏRHAL AZAD OLUNMALIDIR**

Mayın 3-də isə Nəsimi Rayon Məhkəməsi hüquq müdafiəçisi Vidadi İsgəndərova qarşı iki aylıq həbs-qətimkan tədbiri seçib. O, 2010-cu il parlament seçkilərinə- səsvermə hüququna və seçki komissiyalarının işinə müdaxilədə ittiham olunur. Təşkilat xatırladır ki, İsgəndərov fırıldaqçı tikinti şirkətlərinin aldatdığı sakinlərin, həmçinin polis zorakılığına məruz qalanların hüquqlarını müdafiə edib. Ötən illərdə DİN rəsmiləri ona qarşı bir neçə dəfə diffamasiya ittihamı qaldırsalar da, o, məhkum olunmayıb. Seçkilərdən sonra isə İsgəndərov polisə və prokurorluğa özünün namizəd olduğu Ağdaş-Göyçay seçki dairəsində seçki saxtakarlıqlarını göstərən video materiallar təqdim edib. Ancaq hakimiyyət bu iddiaları araşdırmayıb.



Rachel Denber

Human Rights Watch qeyd edir ki, İsgəndərov aprel ayı ərzində iki dəfə müxalifətin aksiyalarında saxlanıb. Onun ikinci həbsi başa çatan gün hakimiyyət hüquq müdafiəçisinə qarşı yeni ittiham irəli sürüb. *"İsgəndərova qarşı yeni ittihamların vaxtı açıq-aydın göstərir ki, bu, onu fəallığına görə cəzalandırmağa yönəlmiş cəhddir. O, dərhal azad olunmalıdır,"* Rachel Denber belə deyir.

## AzadlıqRadiosunun daimi verilişlərindən biri




## AzadliqRadiosu.az saytında həmçinin oxuyun



**Şuşanın işğalından 19 il ötür**



**Avropanın ən mömin ölkəsi Rusiya imiş**



**Devid Bekhem yolda qəza törədib**



**Rusiyada 2012-ci il prezident seçkisi artıq bitibmi?**




İ. İbrahimli: **«Müstəqillik əldə etdik, amma insanlar hələ kölə vəziyyətdədir»**

# Korrupsiyaya qarşı mübarizə dayanıbmı?

**AzadlıqRadiosunun «Panorama» verilişində bu barədə suallara «Alma» qəzetinin baş redaktoru İsrail Musayev və «Xalq qəzeti»nin redaktor müavini Tahir Aydınoğlu cavab verir.**



**«PREZİDENT EHTİYATLANIR Kİ...»**

İsrail Musayev:

- Əslində, korrupsiya ilə mübarizənin ilk aylarında o, heç bəzi sahələrə gedib çatmamışdı. Məsələn, gömrüyə. Düzdür, bu sahədə qanunvericiliyə bəzi dəyişiklik oldu. Ancaq maşınların gömrük qeydiyyatında rüşvət qalırdı. Yenə də bəzi mallara gömrükdə monopoliya qoyulurdu.



İsrail Musayev

Mənə elə gəlir ki, prezident korrupsiyaya qarşı mübarizədə görüntü yaratmaq istəmir. Ən azı mən buna inanmaq istəyirəm. Fikrimcə, sadəcə, prezident bunu bacarmır, ehtiyat edir.

Qayıdaq referenduma. Referendum keçirildi və prezident həmişəlik namizədliyini vermək imkanı qazandı. YAP ölkənin ən mütəşəkkil siyasi qüvvəsidir. Bu referendum olmasaydı, YAP-da, hakim siyasi komandada çat yaranacaqdı. Çünki kimlərsə ortalığa çıxa bilərdi. Bu referendumla həmin çatın qarşısı alındı. İndi prezident ciddi şəklidə həmin korrupsioner sistemin üstünə getsə, yenidən orada çat əmələ gələcək. Prezident bundan ehtiyatlanır. Siz məndən soruşmadınız ki, bu sistemin gücü nədir? Bu sistemin gücü pula hərislikdir.

**- Siz prezidenti bu komandadan ayırırsınız?**

- Bu, mürəkkəb sualdır. Əlbəttə, Dubay villalarından danışılırsa, onları ayırmaq çətin məsələdir. Ancaq mən ən azından ümid edirəm, onları ayırmağa çalışıram.

**«XALQ BU MƏSƏLƏDƏ PREZİDENTİN TƏRƏFİNDƏ OLACAQSA...»**

Tahir Aydınoğlu:

- Şübhəsiz ki, hamının istədiyi sabitlikdir. Sabitlik də həmrəylikdən keçir. Azərbaycanda passiv bir həmrəylik var. Passiv bir həmrəylik cəmiyyəti irəli apara bilməz. Qaldı korrupsiyaya qarşı mübarizənin belə aparılmasına, yəqin sizdə şahidsiz.

Kimsə indi həkimdən qayıdır, deyir ki, əşi həkim məndən rüşvət almadı. Ancaq özümə də yaxşı baxmadı.

Sovetlər dönəmində də belə bir gerçəklik yaranmışdı. Biz ona durğunluq deyirdik. Ölkənin büdcəsi silahlanmaya gedirdi, ancaq xalqın maaşları artırılmırdı. Siyasi büro insanların bir-birindən qazanmasına göz yumurdu. Həkimə normal məvacib vermədən onu qorxutmaq olmaz ki, sən xəstədən pul alsan, məsuliyyətə cəlb edilə bilərsən.

İslahatlar aparılmalıdır. Cərimələr çox yüksəkdir. Bu halda sürücü ilə müfəttiş cərimənin yarısına anlaşmaq istəyəcək. Cərimələr az olsa, kimsə heç müfəttişlə anlaşmaq istəməz. Kənddə aqrar islahat getdi. İndi mənim atam da, qardaşım da torpaqdan daha çox qazanc götürür.



Tahir Aydınoğlu

Ancaq böyük özəlləşdirmədən divident alacağıma inanmamışam. Bax, bu məsələlər açıq ortalığa qoyulmalıdır. Xalq bu məsələdə prezidentin tərəfində olacaqsa, bu islahatlar yeriyəcək. Əks halda prezident də, hakim partiya da başqa vasitələr axtarmalı olacaqlar».

**Verilişə AzadliqRadiosu.az saytında qulaq asa bilərsiniz.**

# Avropaya heroin... Azərbaycandan?



Heroinin Əfqanıstandan Avropaya Balkan marşrutu

**Azərbaycanda həbsxanada jurnalistin paltarından heroin tapılanda soruşdular ki, həbsxanada heroin hardandır? Ancaq yəqin ki, soruşmaq lazım idi ki, Azərbaycanda heroin hardandır?**

Europol Avropa Birliyində mütəşəkkil cinayətkarlıq haqda hesabat yayıb. Hesabatda deyilir ki, "son illər heroinin Qara Dəniz Marşrutunun yeni inkişafını görürük".

**Qara Dəniz Marşrutu nədir?** Hesabatda deyilir ki, bu yolla heroin "İran, Azərbaycan, Gürcüstan və Ukrayna vasitəsilə Rumıniyaya və Baltik və Şimal dənizləri ölkələrinə gəlir".

Hesabata görə, Avropa Birliyinə heroin gətirməkdə və Birlik ölkələri daxilində heroini yaymaqda ən tanınmış qruplar türkdilli və albandilli kriminal qruplardır. Türkdilli qruplar əsasən Qərbi Balkanlarda qərarlaşıblar. Əməkdaşlığın isə ən ağlagəlməz coğrafiyası var. Məsələn, heroinin Orta Asiyadan Qərbi Avropaya daşınmasında albandilli kriminal qruplar Litvanın kriminal qrupları ilə əməkdaşlıq qurublar.

Türkdilli qruplar isə Avropaya gətirdikləri heroinin bir hissəsini ekstazi adlanan süni, sintetik narkotikə dəyişirlər. Sonradan ekstazi Türkiyəyə daşınır.

***Elxan Nəsibli***

# «Oğuz-Qəbələ-Bakı» Su Kəməri haqda gözlənilməz iddialar

## Mirvari Qəhrəmanlı: "1 milyard dollarlıq kəmərin açılışı tam hazır olmadan keçirilib"



Mirvari Qəhrəmanlı

**«2010-cu il dekabrın 28-də ölkə prezidenti aldadılıb!» Bu sözləri AzadlıqRadiosunun «Can Bakı» proqramına hüquq müdafiəçisi Mirvari Qəhrəmanlı söyləyib.**

**KƏMƏR TAM HAZIR DEYİL!**

Onun bildirdiyinə görə, «Oğuz-Qəbələ-Bakı» Su Kəmərinin açılışı, sadəcə, açılış xətrinə edilib və kəmər tam hazır deyil. «Azərsu» üzərinə götürdüyü öhdəliyi yerinə yetirməyib: *«Bunu aprelin 20-də Qəbələ və Oğuza etdiyimiz səfər də sübut etdi. Kəmərin vəziyyətinə yerindəcə baxış keçirdik və bir daha bu qərara gəldik ki, prezident aldadılıb».*

**ORADA EKOLOJİ PROBLEMLƏR VARDI**

Nazirlər Kabineti tərəfindən kəmərin icrasının 2006-cı ildə «Azərsu»ya tapşırıldığını deyən M.Qəhrəmanlı layihənin sonadək reallaşdırılmasının da bu quruma həvalə olunduğuna diqqət çəkdi: *««Azərsu» kəmərin ətraf mühitə təsirini qiymətləndirmə sənədi hazırlamadan layihəyə başladı. Orada ekoloji problemlər vardı. Ötən ay keçirdiyimiz monitorinqlər göstərdi ki, həmin problemlər həll edilməmiş qalır. Mülkiyyətçilərə kompensasiya verilməsində də pozuntular var. 800 nəfərin bəxti gətirib, alıb. 3256 nəfər torpaq mülkiyyətçisinin isə haqqı pozulub. Onlar yoxsulluq həddindədirlər».*

**TORPAQLAR ZƏBT EDİLDİ**

Mirvari xanım hər hansı bir layihənin icrasının əhalini kasıbçılıq həddinə salmamalı olduğunu söylədi: *«İnsanların torpaqları zəbt edildi. Həm də bu torpaqlar bərəkətli torpaqlardır. İnsanlar ondan fayda götürürdü. Taxıl, arpa, yonca əkirdi, fındıq ağacları vardı. Hamısı qırıldı. 4 ildir ki, torpaqlarında bir toxum əkə bilməyənlər var. Hacıqabul rayonunun Tağlı kəndində iki qardaşın 1100 nar ağacı məhv olub. Başqa rayonlarda da (kəmər 8 rayondan keçir) həmçinin».*


İlham Əliyev kəmərin rəsmi təməlqoyma mərasimində, 1 mart 2007

Hüquq müdafiəçisi deyir ki, kəmərin çəkilmə prosesində dağıdılmış meşələrin bərpasına söz verilsə də, buna əməl olunmayıb: *«Ətraf kəndlərdə susuzluqdan əziyyət çəkirlər. Biz bu xəbərdarlığı əvvəllər etmişdik. Bulaqların gözünə toxunulduğundan istiqamət dəyişib. Quyuların uçma təhlükəsi baş verib. Zay borular olduğu üzə çıxıb».*

**QISA XATIRLATMA:**

«Oğuz-Qəbələ-Bakı» Su Kəmərinin uzunluğu 263 km-dir.

2000 mm diametrində olan kəmər paytaxta saniyədə 5, saatda 18 min, sutkada isə 432 min kubmetr su gətirilməsini təmin etməlidir.

Layihə iki hissədən-sugötürücü qovşaq və «Oğuz-Qəbələ-Bakı» magistral su kəmərindən ibarətdir.

Kəmərin rəsmi təməlqoyma mərasimi 01.03.2007-ci ildə, açılışı isə 28.12. 2010-cu ildə olub.

Kəmərin 14 aya, 480 milyon manata başa gələcəyi nəzərdə tutulmuşdu. Kəmərin 45 ay davam edən tikintisinə 747 milyon manat (təxminən 1 milyard dollar) xərclənib.

**BAKINI SU TƏHLÜKƏSİ GÖZLƏYİR**

Monitorinq qrupunun artezianların qoşulduğu borularda suyun vəziyyətini də müşahidə etdiyini deyən Mirvari xanım suyun azlığını, bəzi boruların hətta susuz olduğunu da bildirdi: *«Bakı əhalisinə vəd edildiyi kimi, saniyədə 5 kubmetr su gəlmir. Kaş mənim dediyim proqnoz yalan olaydı. 1 həftə telefonla Bakının bütün rayonlarında yaşayanlardan sorğu götürdük. Amma kəmərin istifadəsindən sonra su təchizatında heç nə dəyişməyib, dəyişə də bilməz. Çünki Bakı kanalizasiyası, su sistemi o qədər suyu qəbul etməyə hazır deyil».*

Mirvari xanım daha bir təhlükənin kəmərin qorunmasıyla bağlı olduğunu dedi: *«Kəmər qorunmur».*

**SƏHVLƏR ƏVVƏLDƏN BAŞLAMIŞDI**

İqtisadçı-ekspert Rövşən Ağayev 2006-cı ilin yayında layihəyə qəfildən start verildiyinə və icrasına tələm-tələsik başlandığına diqqət çəkdi: *«Layihənin icraçıları işi qeyri-şəffaf apardılar. Dünya təcrübəsində belə böyük layihələrin tenderi məlumatlandırma kampaniyası ilə, hətta televiziya vasitəsilə aparılır. Bizdə isə hər şey qapalı və sürətlə oldu. Layihənin nə dərəcədə effektiv olacağı ilə bağlı tələsik qərarlar verildi. Prosesə vətəndaş cəmiyyəti cəlb olunmadı. Layihənin icrası zamanı keçirilən monitorinqlərdə hökumət özü maraqlı olmalıydı, özü bu prosesə pul ayırmalıydı».*


Rövşən Ağayev

R.Ağayev qeyd edir ki, hökumət kəmərin istifadəsindən sonra nələrin dəyişəcəyini elan etməli idi: *«İnfrastruktur hazır olmadığından, özləri də etiraf edirlər ki, saniyədə 5 kub yox, 2 kub qəbul etməyə məcburuq».*

**1 KM-İN DƏYƏRİ 3 MİLYON MANAT?!**

*--Rövşən Ağayev kəmərin hər km-nə 3 milyon manat vəsait xərclənməsini nə ilə izah etdi?*

--Vəsaitlərin xərclənməsi ilə bağlı suallara dövlət orqanları necə cavab verib?

*--Mirvari Qəhrəmanlı nəhkəmə çəkişmələrindən nələr danışdı?*

--Kəndlilərə torpaq verəcəkləri haqqında sözü kim tutmadı?

*--Su kəmərində xlorlayıcı qurğular olmalıdırmı?*

--Mirvari Qəhrəmanlı «Azərsu»nu nədə suçladı?

**Bu verilişə AzadliqRadiosu.az saytında qulaq asa bilərsiniz.**

***Sevda İsmayıllı***



# 5 nəfər barəsində cinayət işi açılıb

**Mayın 6-da Təhsil Nazirliyinin binası qarşısında aksiya keçirən 5 nəfər barəsində cinayət işi başlanıb. Bu barədə «APA»ya Daxili İşlər Nazirliyinin mətbuat xidmətindən məlumat verilib.**

Məlumatda bildirilir ki, aksiyada ümumilikdə ictimai qaydanı pozan və polisin qanuni tələbinə tabe olmayan 65 nəfər saxlanıb. Onlardan 5-i Cinayət Məcəlləsinin 221.2-ci və 221.3-cü (xuliqanlıq) maddələri ilə cinayət məsuliyyətinə cəlb edilib. 38 nəfər xəbərdarlıq edildikdən sonra sərbəst buraxılıb. 22 nəfər barəsində isə toplanmış materiallar baxılması üçün aidiyyəti üzrə rayon məhkəmələrinə göndərilib.

Mayın 6-da saat 11 radələrində bir qrup şəxs Təhsil Nazirliyinin qarşısında razılaşdırılmamış aksiya keçirib. Onlar orta məktəblərdə hicaba qoyulan qadağa əleyhinə dini şüarlar səsləndiriblər. Polis aksiyanın qarşısını alıb. Xəsarət alanlar var. Faktla bağlı Cinayət Məcəlləsinin 221.2.1 (bir qrup şəxs tərəfindən xuliqanlıq) və 221.2.2-ci (ictimai qaydanın pozulmasının qarşısını alan hakimiyyət nümayəndəsinə müqavimət göstərmə) maddələri ilə cinayət işi başlanıb. İstintaqın aparılması Bakı Şəhər Baş Polis İdarəsinin İstintaq İdarəsinə həvalə olunub.

# Sumqayıtda təzə təmirdən çıxan park yenə sökülür

**YENİDƏNQURMA № 1**

*Sumqayıt şəhərində yenicə təmirdən çıxan Nəsimi adına Mədəniyyət və İstirahət Parkı təzədən sökülür. Ötən ilin dekabrında Sumqayıt Şəhər İcra Hakimiyyəti bu parkda aparılan işlər haqqında belə bir rəsmi məlumat yaymışdı:* «Ərazidə 9500 kvadratmetr sahəyə tamet döşəmə qoyulub. Parkın işıqlandırılması məqsədilə 3480 metr yeni kabel xətti artıq çəkilib, 58 ədəd müasir tipli dekorativ dirəklər basdırılıb. 116 ədəd yeni elektrik fənərləri və lampalar asılıb. Bundan əlavə, parkda oturacaqlar və zibil qutuları yenisi ilə əvəz edilir, yaşıllaşdırma işləri aparılır».

Əvvəlki icra başçısının bu rəsmi məlumatda gördüyü işləri indi, sadəcə, kürüyüb bir kənara atır, hər tərəfi təzədən qazırlar.

**YENİDƏNQURMA № 2**

Parka istirahətə gələnlər deyirlər ki, burada söküntü-tikinti işləri keçmiş icra başçısı Vaqif Əliyevin vəzifədən getməsinə bir az qalmış başa çatıb. Yeni icra başçısı gələn kimi başlayıblar yerə və səkilərə yeni döşənmiş bahalı daşları, mərmərləri sökməyə. Parkın ərazisində fəhlə gözə dəyməsə də, yerindən qopardılmış və sınıq-salxaq vəziyyətdə olan mərmərlərdən, daş plitələrdən, işıq dirəklərindən, yarımçıq qalmış qazıntı işlərindən hiss olunurdu ki, burada əməlli-başlı işə başlanılıb. Parkın çayxanasına toplaşmış təqaüdçülər bildirirlər ki, «büdcədən pul ayrılıb, düzəlib. İndi yenə bunun sökülməyinə pul gedir xalqın cibindən, tikilməyinə də ikiqat pul gedir». Sakinlər təmirdən yeni çıxmış parkın təkrar təmir olunmasını israfçılıq hesab edirlər: «Bura çəkdiyi xərci paylasın dilənçilərə, kasıblara, qaçqınlara, Qarabağ əlillərinə».

**RESTORAN TİKİLİB, TUALET UNUDULUB**

Sakinlər deyir ki, məmurlar bu boyda parkın ərazisində ayaqyolu tikməyi unudublar. Amma dəbdəbəli restoran tikmək yadlarından çıxmayıb. Deyirlər ki, parkın ərazisində tikilmiş restoranın hələ də kimə məxsus olduğunu araşdırırlar və bir tərəfə çıxa bilmirlər.

***Esmira Cavadova***

# Nehrəmə polis yeridilib

**Naxçıvan Muxtar Respublikasının Babək rayonunda yerləşən Nehrəm kəndinin əkin sahələrinin suya olan tələbatını əsasən Vayxır, Sirab, Bənəniyar gölləri ödəyir. Bir də Araz çayı.**

Sakinlər deyir ki, əkin sahələrinin suya olan tələbatının böyük hissəsini Araz çayından su nasosları vasitəsilə təmin edirlər. Bu il nasosların sıradan çıxması səbəbindən təxminən min hektarlıq sahə susuz qalıb. Kənd sakini Vəfadar Eyvazov deyir ki, Nehrəm Sudan İstifadə Edənlər Birliyinin rəhbəri Cəmşid Həsənov və kənd icra nümayəndəsi Təvəkkül Ələkbərova dəfələrlə müraciət etsələr də, bunun heç bir nəticəsi olmayıb:

**ETİRAZ AKSİYASI BAŞ TUTMAYIB**

Başqa bir Nehrəm sakini Yaşar Bağırsoy deyir ki, sahələrin susuz qalmasına etiraz olaraq may ayının 6-da kəndin mərkəzində aksiya keçirməyi planlaşdırıblar. Ancaq aksiyaya iki gün qalmış kəndə Babək Rayon Polis İdarəsinin 200-ə yaxın əməkdaşı yerləşdirilib. Bu səbəbdən də aksiya baş tutmayıb. Yaşar Bağırsoy: *«Elə bilirlər aksiyanın təşkilatçısı mənəm. Ona görə də bir neçə polis mənim evimi xüsusi nəzarətə götürüb. Ev mühasirədə olduğundan ailə üzvlərim narahatdırlar».*



Naxçıvan Dəmiryol Vağzalı

**SU OLACAQ**

*Nehrəm kəndinin icra nümayəndəsi Təvəkkül Ələkbərov su probleminin olduğunu təsdiqləyir. O deyir ki, problem tezliklə həll olunacaq:* «Su nasosları işləmədiyindən Arazdan su vura bilmirik. Yeni, daha böyük nasoslar sifariş etmişik».

Polis əməkdaşlarının Nehrəm kəndinə yerləşdirilməsi və Yaşar Bağırsoyun evinin nəzarətə götürülməsi məsələsinə gəlincə isə, Babək Rayon Polis İdarəsinin rəisi Cavid Qasımov suallarımıza cavab verə bilməyəcəyini dedi: *«Bu haqda mən nə hə deyə bilərəm, nə də ki, yox».*

***Yafəz Əkrəmoğlu***

# "Бить розгами, пока не поумнеет"

*В четверг в Совете прессы Азербайджана обсуждали законопроект «О диффамации». Главные редакторы проправительственных газет «Азербайджан» (Бахтияр Садыгов) и «Ени Азербайджан» (Хикмет Бабаоглу), ранее выступавшие с противоположным мнением, заявили о необходимости принятия этого закона. Выставленный на публичное обсуждение в Совете прессы законопроект, по мнению почти всех выступавших руководителей СМИ, «скопирован с европейских образцов», отмечает Turan.*

Во время обсуждений некоторые члены Совета прессы выразили неординарных мнений о свободе слова и мнений. Так, главный редактор информагентства APA Вусаля Махиргызы заявила: «Я всегда была за принятие закона "О диффамации", так как все равно в большинстве случаев журналистов арестовывают по другим статьям Уголовного Кодекса. Непринятие закона лишь показывает нас как страну, не выполняющую своих обязательств перед международными организациями»

А главный редактор газеты «525-й газеты» Рашад Меджид, по информации информагентства, сказал: «Нужно вернуться к дедовским правилам – бить розгами, пока не поумнеет».

# Наводнение «отменяется»!



Абид Шарифов, май 2010

«Граждане могут быть уверены, что угрозы наводнения в Азербайджане в этом году нет», - заявил вице-премьер страны Абид Шарифов, комментируя вопрос повышении уровня воды в Куре. Шарифов подтвердил, что с приходом весны уровень воды в реках растет, однако «пока это не опасно», передаетАПА.

По его словам, в этом году скорость потока воды в Куре примерно в 3 раза меньше, чем в прошлом: «Некоторые лица, неразбирающиеся в данном вопросе, распространяют слухи о повышении уровня воды, что беспокоит население». Вице-премьер отметил, что «если уровень воды в Мингячевирском водохранилище в аналогичном периоде прошлого года составлял 79,6 метров, то сейчас этот уровень ниже на 4 метра. Иными словами, есть возможность для поступления в водохранилище еще несколько миллионов кубометров воды».

По словам Абида Шарифова, построена плотина в 400 км: «Эти работы ведутся не только вдоль рек Куры-Араза, но и горных рек. Вопрос повышения уровня воды в реках и угроза наводнений находится в центре внимания госорганов и непосредственно главы государства. Поэтому не верю, что может произойти наводнение».

# Судьба 117 миллионов на благоустройство Баку

*Департамент коммунального хозяйство при аппарате главы Исполнительной власти города Баку заключил договора на благоустройство столицы на общую сумму 116,92 млн. Манатов, сообщает Turan. Ссылаясь на информацию изГосударственного агентства по закупкам Азербайджана, информагентство сообщает, что ремонт автомобильных дорог (подрядчик - "ENS Insaat-E") в Баку обойдется в 44,5 млн. манатов. При этом в эту сумму не входят работы по строительству туннелей, подземных и наземных пешеходных переходов и дорожных узлов и т.д., которое осуществляет "Azeryolservis" при Министерстве транспорта страны.*

В этом году в Баку продолжится строительство фонтанов. Для этих целей "Alpina-A" получило свыше 20 млн. манатов. Примерно на эту же сумму обойдутся работы по реконструкции и капитальному ремонту парков и аллей, проспектов и улиц. Эти работы осуществят работники компании "ABAD". В текущем году ремонт фасадов и крыш, освещение экстерьера зданий исторического значения в центральной части столицы Азербайджана обойдется Государственному бюджету в более 30 млн. манатов. Заказ получила компания "Vest Ltd".

# Главное - не слова



Эльмира Сулейманова

Омбудсмен Азербайджана Эльмира Сулейманова обратилась в Национальный совет по телевидению и радио. Она просит о содействии субтитрованию информационных и других телепередач для обеспечения информацией инвалидов, полностью или частично утративших слуховые способности. Отрадно, конечно, что госпожа Сулейманова печется и о людях с проблемами слуха в соответствии со своими обязанностями. Однако ее заботы о помощи инвалидам, обращение в НСТР по поводу работы телевидения породили у меня некоторые сомнения.

**ВОПРОСЫ**

Знает ли уважаемая Эльмира Сулейманова о том, что телеканал Lider TV грубо нарушил права нескольких оппозиционных и независимых журналистов, показав их снятую скрытой камерой интимную жизнь? Если Эльмира ханым не знает до сих пор, можно ли считать этот материал обращением к ней, как к омбудсмену Азербайджанской республики? Если знает, обращалась ли госпожа Сулейманова в НСТР в связи защитой прав этих журналистов, которые грубо нарушил телеканал Lider TV, несколько раз демонстрируя вторжение в частную жизнь скрытой камерой?

Если уважаемая Эльмира ханым не обращалась, то по какой причине? Разве это не входит в ее обязанности? Или я ошибаюсь?

# Transparency International Bakını məhkəmə islahatlarına çağırır



Beynəlxalq Şəffaflıq Təşkilatının emblemi

**QAFQAZDA KORRUPSİYA**

Beynəlxalq Şəffaflıq Təşkilatı - Transparency International mayın 4-də yayılan yeni hesabatında qeyd edir ki, Azərbaycan, Ermənistan və Gürcüstan son bir ildə antikorrupsiya islahatlar sahəsində az da olsa uğurlar əldə ediblər. Amma bu ölkələr şəffaflığın təmin edilməsi və bütün sahələrdə hökumətlərinin məsuliyyətli olması üçün daha çox iş görməlidirlər.

Transparency International onları xüsusilə də məhkəmə sistemində islahatlara diqqət yetirməyə çağırır. Cənubi Qafqaz ölkələrindən bəhs edən hesabatda qeyd edilir ki, bu dövlətlər Avropa Şurasının və Korrupsiya Əleyhinə Dövlətlər Qrupunun tövsiyələrini yerinə yetirməlidirlər.

Sənədə görə, Gürcüstan dövlət xidmətlərində elektron xidmətlərin qurulmasında xeyli irəliləyişlər əldə edib. Amma Azərbaycanda 2011-ci ilin əvvəlində bəzi antikorrupsiya dalğaları olsa da, nə Bakı, nə də Yerevan bu sahədə ciddi islahatlar aparmayıblar.

UNUTMAYIN: **DAHA VƏTƏNDAŞ PASSİV SEYRÇİ OLMAQ İSTƏMİR!**

Sənəddə deyilir: "Bu regiondakı hökumətlər anlamalıdırlar ki, daha vətəndaşlar passiv seyrçi olaraq qalmaq istəmirlər. Onlar getdikcə daha çox nümayiş etdirirlər ki, korrupsiya və pis idarəetməyə dözmək istəmirlər".

Transparency International araşdırmaları üzrə ortaya çıxan əsas nəticələri bu cür qruplaşıdırır:

**Azərbaycan**

Məhkəmə sistemnində qanunların və qərarların icrası sahəsində ciddi problemlər var. Şəffaflıq aşağı səviyyədədir. Hakimləri icra hakimiyyəti təyin edir, ona görə də məhkəmələrin müstəqilliyi məhduddur. Dövlət xidmətlərinə gənc mütəxəssislərin cəlb edilməsində və məmurların peşə davranışlarında müəyyən irəliləyişlər var. Amma bu sahədə təlim çatışmazlığı və peşəkarlıq səviyyəsi problem olaraq qalır. Hökumət Korrupsiya Əleyhinə Dövlətlər Qrupunun tövsiyələrini yerinə yetirmək üçün xüsusi maliyyə kəşfiyyatı qrupu yaradıb. 2011-ci ilin əvvəlində isə hökumət vətəndaşların etibarını qazanmaq üçün bir neçə antikorrupsiya sənədləri qəbul edib.

**Ermənistan**

2010-cu ildə məhkəmə sistemi və dövlət xidmətləri sahəsində çox cüzi irəliləyişlər olub. Bu sahələrdə müstəqilliyin olmaması və şəffaflıq problem olaraq qalır. Korrupsiya Əleyhinə Dövlətlər Qrupunun tövsiyələrinin icrası istiqamətində bəzi irəliləyişlər var. Korrupsiya cinayətlərinin üzə çıxarılmasında təlimat, məmurların peşə davranışı qaydalarını pozmalarına görə şikayət mexanizmləri təkmilləşdirilib.

**Gürcüstan**

Hakimlərin müstəqil olmaması bu ölkədə yaxşı idarəetmənin ən ciddi problemi olaraq qalır. Xüsusilə dövlət xidmətlərində siyasiləşmə olduqca yüksəkdir. Amma bu sahəyə elektron sistemlərin tətbiqi yaxşılaşıb. Transparency International Tbilisini qanunların qəbulu və onların icrasında da şəffaflığın artırılmasını tövsiyə edir.

Beynəlxalq Şəffaflıq Təşkilatının sonuncu illik hesabatına görə, Azərbaycan Qafqazda ən korrupsiyalaşmış dövlətdir. Təşkilatın hazırladığı korrupsiya indeksinə görə, Azərbaycan 178 ölkə arasında 134-cü sırada qərar tutur.

# Avropa İttifaqı ilə viza rejimi nə vaxt sadələşəcək?

**«Avropa İttifaqı ilə əməkdaşlıq Azərbaycan üçün çox mühümdür. Ümidvarıq ki, «Şərq Tərəfdaşlığı» proqramı bu əməkdaşlığı daha yüksək mərhələyə qaldıracaq». Bu fikirləri Azərbaycanın EURONEST-də nümayəndə heyətinin rəhbəri Ziyafət Əsgərov qurumun ilk iclasında çıxışı zamanı deyib.**

*Z. Əsgərov Avropa İttifaqı ilə dialoqun qurulmasının zəruriliyini vurğulayıb:* «Ümid edirəm ki, EURONEST bu sferada gözlənən ümidləri doğruldacaq və Avropa ailəsinə inteqrasiyaya imkan verəcək. Azərbaycan bu il müstəqilliyinin 20 illiyini qeyd edir. Bu 20 il ərzində çox şeyə nail olunub. Azərbaycan öz gələcəyini Avropada görür. Avropa İttifaqı ilə tərəfdaşlıq qarşılıqlı əməkdaşlığa çevrilib. İnsan hüquqları və digər sahələrdə Avropanın yardımını yüksək qiymətləndiririk. Azərbaycan «Şərq Tərəfdaşlığı» proqramının aktiv iştirakçısı kimi, ötən ilin yayında Avropa İttifaqı ilə assosiativ saziş üzrə danışıqlara başlayıb və ümidvarıq ki, bu danışıqlar uğurla başa çatacaq. Həmçinin ümidvarıq ki, ilini sonuna kimi viza rejiminin sadələşdirilməsinə dair danışıqlara başlayacağıq».

*Z. Əsgərov yeni yaradılan Parlament Assambleyası çərçivəsində həlli uzadılmış münaqişələrə diqqət yetirilməsinin zəruriliyini vurğulayıb:* «Azərbaycan hesab edir ki, EURONEST mövcud münaqişələrin ölkələrin ərazi


Ziyafət Əsgərov

bütövlüyü çərçivəsində həllinə diqqət ayıracaq. Hesab edirik ki, bu məsələ Avropa İttifaqının əsas maraqlarından biri olmalıdır».

***APA***

# Astaralı sürücü: «Məni təhqir edib, təpik atdılar...»


İlqar Məmmədov

**«Bakı-Astara yolunun uzunluğu 313 kilometrdir. Yolun üstündə 3 yol polisi postu var. Demək olar ki, yol 7 rayonun ərazisindən keçir. Hər rayonun ərazisində də 5-6 yerdə yol polisi durur. Bunlarla işim yoxdur. Sürücüləri ən çox incidən Nəqliyyat Departamentin işçiləridir. Onlar məni təhqir ediblər».**

Bunları AzadlıqRadiosuna Astara rayon sakini İlqar Məmmədov deyir. Onun açıqlamasına görə, ötən il dekabrın 23-də, axşam saatlarında Bakı-Astara yolunun Cəlilabad rayon ərazisindən keçərkən yolda duran bir qrup adam idarə etdiyi «Mercedes» markalı yük maşınını saxlayıb. Onlardan biri yaxınlaşaraq Nəqliyyat Departamentinin işçiləri olduğunu deyib: «Mənə dedilər ki, fərqlənmə nişanının vaxtı bir həftədir ki, keçib. Mən onları başa saldım ki, bu mənim günahım deyil. Fərqlənmə nişanı almaq üçün lazımi yerə müraciət olunub. Yaxın 1-2 gündə nişanı verəcəklər. Onda məndən 30 manat pul tələb etdilər. Mən isə pulum olmadığını dedim. Məni təhqir etdilər, təpik də atdılar. Mən onlara dedim ki, ölkədə korrupsiyaya, rüşvətxorluğa qarşı mübarizə gedir. Siz ölkə prezidentinin korrupsiyaya qarşı apardığı mübarizənin əleyhinə gedirsiniz. Onlar isə dedilər ki, bu yolların prezidenti bizik. Əllərindən qurtulub qaça bildim».

### «YERDƏN BİR DAŞ GÖTÜRÜB MAŞININ ÖN ŞÜŞƏSİNƏ ÇIRPDI»

*Həmin adamlar İ.Məmmədovun deməsinə görə, ikinci dəfə də saxlayıblar:* «Onlardan biri yerdən bir daş götürüb maşının ön şüşəsinə çırpdı. Şüşə bir neçə yerdən çat verdi. Qorxdum ki, üstümə düşüb döyərlər. Bir lerikli sürücünü də belə döymüşdülər.»

*İ.Məmmədov, deməsinə görə, Göytəpə yol polis postunda duranlara bu barədə məlumat verir və kömək istəyir. Postdan polis şöbəsinə müraciət etməyi məsləhət görürlər. İ. Məmmədov deyir ki, Cəlilabad polis şöbəsində də onun şikayətini dinləyən tapılmayıb:* «Nəhayət, bir rütbəli polis dostuma zəng etdim, dərdimi danışdım. O, rayon polis şöbəsi ilə əlaqə saxlayıb məni dinləməyi xahiş etdi. Məni dinlədilər, dedilər ki, tədbir görüləcək. Tədbir görülmədi. Respublika Prokurorluğuna müraciət etdim. Şikayət məktubuma baxılmaq üçün Cəlilabad Prokurorluğuna göndərildi. Bu işə baxan müstəntiq Amin Şəkərəliyevin yanında bir neçə dəfə olmuşam. Hər dəfə mənə deyir ki, kim bu işi görübsə, cəzasına çatacaq. Ön şüşənin qiyməti 400-500 manatadır. Sınmış şüşə ilə yola çıxmaq olmur. Yol polisi icazə vermir. 3-4 aydır ki, işləmirəm. Bilmirəm ki, bu məsələnin axırı necə olacaq».

### «MAŞININ NÖMRƏSİNİ DƏ SÖKMƏK İSTƏYİRDİLƏR»

Lənkəran şəhər sakini, sürücü Valeh Həbibov da deməsinə görə, İ. Məmmədov kimi Nəqliyyat Nazirliyinin işçilərinin qəzəbinə gəlib. O, qeyd edir ki, vergi ödəyicisidir, şəhadətnaməsi var, üstəlik,


Valeh Həbibov

fərqlənmə nişanı da alıb: «Buna baxmayaraq, bizdən əlavə pul istəyirlər. Mən Qaradağdan rayonlara mişar daşı aparıb satıram. Hər dəfə departamentin işçiləri bizdən 10 manat pul köçürülməsini tələb edirlər. Bilinmir ki, bu pul hansı qanunla alınır. Bir dəfə pulun verilməsinə etiraz etdim. Yolda məni saxladılar, istədilər ki, döysünlər. Maşına daş atdılar, daş ön şüşəyə dəydi. İndi də yeri qalıb. Maşının nömrəsini də sökmək istəyirdilər. Bizi saxlayan kimi 2 manat pul veririk, artıq bu, qanun halını alıb. Yollarda özbaşınalıqdır. Bizi soyurlar. Əvvəllər hər yükdən evə 50-60 manat pul aparırdımsa, indi 20-25 manat aparıram».

### «KİMSƏ QANUNU POZURSA, CƏZASINI ALIR»

*Cəlilabad şəhər «13 saylı Regional Nəqliyyat» MMC-nin rəisi Namiq Kərimov deyilənlərlə razılaşmır:* «Qanunsuz



hərəkətlərə yol verən işçilər barəsində dərhal tədbir görülür. İlqar Məmmədovun şikayəti ilə bağlı bir işçi işdən azad olunub. Belə hadisə birinci dəfə idi ki, baş verirdi. Cəmiyyətin işçiləri təlimatlar əsasında hərəkət edirlər .Kimsə qanunu pozursa, cəzasını alır. Kiminsə narazılığı varsa, bizə şikayət etsin, yoxlayaq».

### «ƏRİZƏDƏ QEYD EDİLƏNLƏR SÜBUT OLUNMADI»

*Cəlilabad Rayon Prokurorluğunun müstəntiqi A. Şəkərəliyev də İ. Məmmədovun şikayəti əsasında yoxlamalar aparıldığını söylədi:* «Ərizədə qeyd edilənlər sübut olunmadı. Buna görə də iş bağlandı. Qalan məsələlər məhkəməlikdir. Şikayətçi zərərin ödənməsi üçün məhkəməyə müraciət edə bilər».

Halbuki Cəlilabad şəhər «13 saylı Regional Nəqliyyat» MMC-nin rəisi N. Kərimov qanunu pozan işçinin cəzalandırıldığını deyir.

***Müstəcəb Məmmədov***

**AzadliqRadiosu.az saytının daimi rubrikalarından biri korrupsiya faktlarından bəhs edir**

Korrupsiometr
Qapalı məqamlara açılan qapı

# Bin Ladenin qonşuları danışır...


**Bin Ladenin ailəsi ilə 10 il bu evdə yaşadığı guman edilir. 4 may 2011**

**QONŞULARI ŞÜBHƏYƏ SALAN MƏQAMLAR...**

Necə olur ki, ABŞ-ın 10 il axtardığı bir terrorçu Pakistanın sakit şəhərlərindən birində - Abbotabadda, özü də Hərbi Akademiyanın bir addımlığında rahatca yaşaya bilirmiş? İndi Qərbdə çoxları Pakistanı bundan xəbər tuta bilməməkdə ittiham edirlər, amma sən demə qonşuları çoxdan bin Ladenin yaşadığı evdən şübhələnirlərmiş. Məsələn, ərazidə poliemelit əleyhinə peyvənd paylayan qadın deyir ki, həyətində bahalı maşınlar olan bu villada ondan düz 23 uşaq üçün peyvənd alıblar, amma iynələri vurmağa qoymayıb, getməsini söyləyəndə - şübhələnib.

Sakinlər başqa bir hadisədən də danışırlar. Qonşuluqdakı uşaqlar futbol oynayanda topları villanın həyətinə düşübmüş. Ordan çıxan bir kişi isə topu qaytarmaq yerinə, onlara topun iki qat qiymətini – 50 rupi verib, uşaqlar da pulu alıblar. Üçmərtəbəli bu evdə 9 qadın, 23 uşaq və bir neçə kişi yaşayırmış. Evin hündür hasarları olmasını qonşuları ailənin həddindən artıq dindar və mühafizəkar olmasıyla bağlayırlarmış.

Amma orda yaşayanların heç vaxt xeyir-şər işlərinə qarışmamasından, kasıblar üçün heç vaxt süfrə açmamasından şübhələnirlərmiş. Evin ətraf aləmlə bütün əlaqəsini Tariq və Arshad Khan adlı iki sakini qururmuş.

Əməliyyat zamanı bin Ladenlə yanaşı, həmin bu iki kuryer də öldürülüb. Öldürülənlər arasında bin Ladenin oğlu və bir qadın da var. İlkin məlumatlara görə, həmin qadın bin Ladenin arvadı deyilmiş. İndi məlum olub ki, əvvəlcə öldürüldüyü deyilən Osamanın arvadlarından biri - əslində ayağından yaralanıbmış. Üstəlik, bin Ladenin əməliyyat vaxtı silahsız olması da açıqlanıb.

**ŞÜBHƏLİ NƏZƏRİYYƏLƏR: BİN LADEN ƏSLİNDƏ BAŞQA YERDƏ ÖLDÜRÜLÜB?**

Əməliyyatla bağlı heç bir video və ya şəkilin yayılmaması, bin Ladenin cəsədinin dənizdə basdırıldığının élan edilməsi bir çoxlarını şübhəyə salıb. Abbotabada gedən AzadlıqRadiosunun müxbiri Fawad Ali Shah deyir ki, "son 3 gündə burda 100-ə yaxın adamla danışıb. Onların çoxu isə Osamanın burada öldürüldüyünə inanmırlar. Deyirlər ki, bin Laden bəyəm dəliydi ki, gəlib Pakistan ordusunun burnunun dibində gizlənsin"?

Hətta yerli sakinlərin bəziləri iddia edirlər ki, bin Ladeni başqa yerdə öldürüblər, sonra gətirib Abbotabada atıblar. Məqsədsə, Pakistanda kimlərisə gözdən salmaq olub. Bəzi Pakistan siyasətçiləri də bu cür iddiaları dəstəkləyir. Məsələn, Mufti Kifayatullah iddia edir ki, bin Ladeni əslində Pakistan ordusu tutubmuş, amma qorxularından olayı başqa cür təqdim ediblər: "Məncə, Pakistan ordusu onu başqa yerdə tutubmuş, ABŞ təzyiq göstərib ki, bin Ladeni versinlər, ona görə də Pakistan ordusu bu əməliyyatı uydurub və ölüm xəbərini yayıblar".

**AzadliqRadiosu.az-da bu mövzuda aşğıdakı yazı və videolarla tanış olmaq mümkündür:**

- **Bin Ladeni belə tapdılar: əməliyyatın məxfi detalları**
- **Pentaqon bin Ladenin yeni videolarını yayıb**
- **Bin Ladeni öldürən xüsusi təyinatlı dəstə - Navy Seal Six**
- **Matthew Bryza: «Bin Ladenin ölümü bütün xalqlar üçün böyük qələbədir»**
- **Azərbaycanlı siyasilər bin Ladenin ölümü barədə**

skype™

# Təhlükəsizlik xidmətləri «Skype»ı izləyir?

**Bir neçə ay öncə Rusiya Federal Təhlükəsizlik Xidməti «Skype», «Gmail» və «Hotmail» xidmətlərində yazışmalara nəzarət edə bilməməsini etiraf etmişdi. Federal Təhlükəsizlik Xidmətinin xüsusi əlaqə mərkəzinin müdiri Aleksandr Andreçkin internet xidmətlərin Rusiya təhlükəsizliyi üçün təhdid adlandırmış, belə xidmətlərin nəzarətsiz istifadəsi Rusiyanın təhlükəsizliyini sual altına qoya biləcəyini demişdir.**

Bir neçə gün öncə isə Azərbaycan rabitə və informasiya texnologiyaları naziri Əli Abbasov «Skype» sisteminin bir çox ölkənin elektron təhlükəsizliyi üçün müəyyən təhlükə yaratdığını deyib. Nazir Azərbaycana da təhlükə ola biləcəyini açıqlayıb.

**NİYƏ MƏHZ SKYPE?**

Qapalı cəmiyyətlər üçün «Facebook», «Twitter» («Youtub»da bura daxil etmək olar) şəbəkələri «Skype»dən daha təhlükəli hesab edilir. Müqayisədə «Skype»nin çoxluğa təsir imkanları bir az məhduddur. Üstəgəl paylaşmaq və şərh yazmaq da «Skype» sisteminə yaddır.

Sual edilə bilər. Niyə məhz «Skype» hökümətlər üçün təhlükə, təhdid yaradır? Ola bilər ki, xususi xidmət orqanları sosial şəbəkələrə nəzarət edə bilmirlər. Və qəsdən «Skype»ə nəzarət edə bilmədiklərini deməklə, internet istifadəçilərini «Skype»ə yönəldirlər, istədikləri informasiyaları ordan «öyrənirlər».

**«GOOGLE» VƏ «FACEBOOK» «SKYPE»İ XİLAS EDİR?**

Bir neçə gündür ki, İT saytları «Google» və «Facebook» kimi internet nəhənglərinin «Skype» xidmətini alacağı barədə xəbərlər dolaşır. Şirkətlərarası danışıqları hələlik heç bir tərəf təsdiq etmir. Bəzi mütəxəssislər «Skype» sistemini 3 milyard dollar civarında qiymətləndirirlər.

***Turxan Kərimov***

# Avropalı deputat Azərbaycanla Belarusu müqayisə edir

Şərq Tərəfdaşlığı Proqramı Parlament Assambleyasının loqosu

**Mayın 3-də EuroNest adlı Avropa Birliyi Şərq Tərəfdaşlığı Parlament Assambleyası yaradılıb. Amma əvvəllər Birliyin həmin proqramına daxil olan Belarus həmin Assambleyadan kənar saxlanıb. EuroNest Şərq Tərəfdaşlığı Proqramına daxil olan altı ölkə ilə əlaqələrə parlamentlərin də cəlb edilməsini nəzərdə tutur.**

Assambleyada Şərq Tərəfdaşlığı Proqramında iştirak edən altı ölkənin – Azərbaycan, Ermənistan, Gürcüstan, Belarus, Ukrayna və Moldovadan hərəsindən 10 deputat iştirak etməlidir. Amma bugünkü toplantıda Belarus nümayəndələrinə ayrılan 10 stul boş olub. Brüsseldə bunu Minskin ötən ilin dekabrında keçirilən prezident seçkisindən sonra etiraz aksiyalarını zorakılıqla dağıtması ilə izah edirlər.

Proqrama daxil olan digər ölkələrdə, o cümlədən də Azərbaycanda demokratiya və insan haqları sarıdan vəziyyət o qədər də ürəkaçan deyil. Buna baxmayaraq, yalnız Belarusun yeni Assambleyaya dəvət edilməməsini Avropa Parlamentinin üzvlərindən biri olan Gunnar Hokmark bu cür izah edib:

- Belarus o biri ölkələrlə müqayisə edilə bilməz. Digər ölkələrdə də problemlər var. Amma bu problemlər müzakirə ediləcək. Belarusda keçirilən son seçki isə bütün hədləri aşdı. Bütün beynəlxalq qiymətləndirmələrdə eyni nəticəyə gəlinib. Düşünürəm ki, bizim bəzi başqa ölkələrlə də debatlarımız, tənqidlərimiz olacaq. Amma yenə də mənə elə gəlir ki, Belarusda demokratiya, insan haqları sahəsində vəziyyəti proqrama daxil olan o biri ölkələrin heç biri ilə müqayisə etmək mümkün deyil.

ANSPRESS agentliyinin məlumatına görə, toplantıya qatılan Avropa Parlamentinin prezidenti Jerzy Buzek iki həftə ərzində Azərbaycana səfər edəcəyini bildirib. O, deyib ki, səfərdə məqsəd Avropa Parlamentinin Cənubi Qafqaz ölkələrinə diqqət ayırdığını nümayiş etdirməkdir. Jerzy Buzek Azərbaycan, Ermənistan və Gürcüstana səfəri zamanı Avropa İttifaqının bu ölkələrlə parlamentlər səviyyəsində, həm də EuroNest çərçivəsində ikitərəfli münasibətlərini inkişaf etdirmək, münaqişələrlə bağlı müzakirələr aparmaq niyyətindədir.

- Bu əməkdaşlıq kimsəyə qarşı deyil. Xüsusilə də Türkiyə və Rusiyaya qarşı. Biz hətta həmin ölkələrdən olan deputatlarla da əməkdaşlıq etmək istəyirik. Çünki biz bilirik ki, proqrama daxil olan ölkələr Rusiya və Türkiyə ilə olduqca güclü əlaqələrə malikdirlər.

Bolqarıstan və Ukraynadan olan deputatlar yeni Assambleyanın həmsədrləri, 8 nəfər də vitse-prezident seçilib. Vitse-prezidentlərin arasında Azərbaycandan olan deputat Elxan Sülymanov da var.

Avropa Birliyinin Şərq Tərəfdaşlığı Proqramı bir neçə il əvvəl qəbul edilib. Birlik proqrama daxil olan ölkələrə ticarət sahəsində üstünlüklər və viza rejiminin sadələşdirilməsini vəd edir.

# Daşqından zərərçəkənlərin tikilməyən evləri



Bayram Bayramov

**«Mən burdan bu saat gedirəm Heydər Əliyevin qəbrinin üstünə, ona şikayət edəcəyəm. Oturacağam qəbrin yanında, axırda bir adam mənimlə maraqlanar ki, a kişi burda niyə oturmusan? Bəs mən dərdimi kimə deyim?»**

Ötən ilin mayında baş vermiş Kür daşqınlarından zərər çəkən 85 yaşlı 2-ci Dünya müharibəsi veteranı Bayram Bayramov 6-cı dəfədir Hacıqabulun Nəvahi kəndindən Bakıya, Fövqəladə Hallar Nazirliyinə şikayətə gəlir. Dediyinə görə, hər dəfə müxtəlif vədlərlə geri, rayona qaytarılır. «Bizim rayondan bura 100-dən artıq adam gəlib. Gəlirlər baxırlar, amma ortalıqda heç bir iş yoxdur. Evin şəklin gətirmişəm, görün mənim evim nə gündədir».

Mayın 6-da Fövqəladə Hallar Nazirliyində şikayətçilərdən bir neçəsi qəbul olunub...

**Maarif Çingizoğlunun reportajının davamını AzadliqRadiosu.az saytında "Kontekst" verilişində dinləyin.**

# Daş niyə bahalaşıb?

Bölgələrdə mişar daşının («kubik») qiymətinin 2 dəfəyəcən artması ilə bağlı məlumatlar gəlir. Misal üçün, 1 həftə əvvəl Gəncədə 40-50 qəpik olan mişar daşının indi 80 qəpik -1 manata satıldığı bildirilir. Sürücülər bunu yük maşınlarının bort hissəsinə dəmir lövhə birləşdirilməsinə qoyulan qadağa ilə izah edirlər.

Aprelin 27-dən etibarən Dövlət Yol Polisi istehsalçı zavodun müəyyən etdiyi normaya uyğun olmayan konstruksiya dəyişikliyi edilmiş yük avtomobillərinin istismarına qadağa qoyub.

- **«İMKANLI ADAMLARIN BARMAĞI»**
- **ABİD ŞƏRİFOV DA SÜRÜCÜLƏRƏ XƏBƏRDARLIQ ETDİ**
- **«SEMENTİ, QUMU, ÇINQILI «YEYİBLƏR», İNDİ DƏ DÜŞÜBLƏR SÜRÜCÜLƏRİN ÜSTÜNƏ»**
- **YOLLARI HAVA DAĞIDIR?**
- **ÇOXDAN QÜVVƏDƏ OLAN QAYDA İNDİ NİYƏ TƏTBİQ OLUNUR?**



**Yazının davamını AzadliqRadiosu.az saytından oxuyun.**

# Şəkidə kəndli ilə icra nümayəndəsinin mübahisəsi



**Şəkinin Baş Şabalıd kəndinin sakini İsrafil Məmmədsoy AzadlıqRadiosunun «Qaynar xətt»inə kəndin icra orqanlarından şikayət edib. Deyir ki, əkin-biçin, torpaq subsidiyaları mənimsənilir. Şikayətçi danışır:**

**«SUBSİDİYALAR MƏNİMSƏNİLİR»**

«Kəndin icra orqanları Kənd Təsərrüfatı Nazirliyinə ümumi əkin haqqında məlumat verirlər, ancaq əkin-biçinin detalları barədə məlumat vermirlər. Məsələn, yazırlar ki, 1000 hektar əkin-biçin oldu. Halbuki əkin heç 20 faiz getməyib. Bizim Sarıca adlanan sahəmizdə Qaxın, Zaqatalanın torpaqları var, yoxlama gələndə onların əkinlərini göstərirlər ki, guya bu bizim əkinimizdir. Beləliklə də, guya əkin planını yerinə yetirmiş hesab olunurlar. Tutaq ki, dövlətə 1000 hektar əkinin «svodkası» verilibsə, gerçəkdə bunun 20 faizi əkilir. Yerdə qalan 800 hektarı öz qohum-əqrabalarının üstünə yazaraq dövlətin əkinə ayırdığı subsidiyaları mənimsəyirlər».

**«ONUN ADI GƏLƏNDƏ MƏNİM ALLERGİYAM TUTUR»**

Baş Göynük kəndinin icra nümayəndəsi Rza Cəlalov subsidiyaların mənimsənilməsi ilə bağlı İsrafil Məmmədsoyun ittihamlarına belə cavab verir: «Bununla bağlı müxtəlif instansiyalara şikayət eləyib. Komissiya gəlib araşdırıb. Bir qohumumun da adında nə bir hektar torpaq yazılmayıb, nə də subsidiya alınmayıb. Komissiya yerində baxıb, aktlaşdırıb. Onun (İsrafil Məmmədsoyun - red.) bütün sözləri şərə, böhtana söykənir. Ümumiyyətlə, onun adı gələndə mənim allergiyam tutur».

**PAY TORPAQLARI NECƏ PAYLANIB**

*İsrafil Məmmədsoyun şikayətləri davam edir. Kəndlilərə torpaqların paylanmasındakı qanunsuzluqlardan danışır:* «Mən bu günə qədər də torpaq payımı ala bilməmişəm. Becərdiyim torpağımı başqasına icarəyə veriblər. Torpaq islahatı başa çatmasına baxmayaraq, bu günə qədər də torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə camaata paylanmayıb. Niyə paylamırlar, ona görə ki, o torpağı icarəyə verib dövlətdən subsidiya alıb mənimsəyə bilməzlər, səbəb budur. 2009-cu ildə mən prezidentə yazandan sonra rayonda artıq icazə verildi, mən və bir neçə nəfər aldıq. Dövlət aktını alanda gördük ki, əl gəzdirib camaatın becərdiyi torpaqları bələdiyyəyə saxlayıblar, camaata kənddən 50 kilometr aralıda olan torpaq payı veriblər».

İcra nümayəndəsi Rza Cəlalov isə dedi ki, İsrafil Məmmədsoyun torpaq payının şəhadətnaməsi də, kadastr sənədi də özünə verilib. Ancaq o, «kəndliyə istifadəsində olan, yoxsa başqa yerdən torpaq verilib» sualına cavab vermədi.

*AzadlıqRadiosu məsələni izləyir, yenilik olsa, xəbər verəcəyik.*

**Əgər buna oxşar problemlə qarşılaşmısınızsa, bizə yazın və "Qaynar xətt"ə zəng edin: 436 77 41**

***Esmira Cavadova***

# Azərbaycanda müsəlmanlar üçün halal bank

**Azərbaycanda "Kövsər" bankdan sonra "Nikoil" bankı İslam bankçılığı üzrə məhsul təklif etməyə başlayıb. Qurumun İslam bankçılığı məhsulunun inkişafı üzrə aparıcı meneceri Anar Yusifzadə deyir ki, "Nikoil" bank bu məhsulu hazırlayarkən yerli qanunvericiliklə yanaşı, şəriət qanunlarını da nəzərə alıb: "Həm faizlər hesablanmır, həm də vəsaitlər faiz olan əməliyyatlarda iştirak etmir. Məsələn, kart verilir, kartdan komissiya tutulur, amma kartdan faizlə yox, sabit bir məbləğ tutulur – sırf zəhmət haqqı olaraq. Onun üzərində biz nə faiz veririk, nə də tuturuq. Sanki biz müştəridən borc almış oluruq. Biz bu vəsaitləri tam olaraq digərlərindən ayırmışıq".**

A.Yusifzadənin sözlərinə görə, martın 11-dən etibarən bazara çıxarılan bu məhsul üzrə müştərilərin sayı 100-ə yaxınlaşıb. Odur ki, bank ilin sonunadək bu məhsul üzrə portfelin xeyli artacağına ümid edir.

**AZƏRBAYCANDA BUNUN ÜÇÜN ZƏMİN VAR**

Azərbaycanda İslam bankçılığının inkişafına böyük zəmin var. Bunu iqtisadçı ekspert Samir Əliyev deyir. Onun sözlərinə görə, Azərbaycanda bankların faiz dərəcələri çox yüksəkdir: "İslam bankçılığının tətbiqi ona gətirib çıxara bilər ki, insanlar kreditləri faizlə yox, səlahiyyət bölgüsü şəklində götürə bilər. Çünki İslam bankçılığının əsas fəlsəfəsi ondan ibarətdir ki, istər gəlirlər, istərsə də xərclər onun üzvləri tərəfindən bərabər şəkildə bölüşdürülür".

Samir Əliyev bazarda təklif olunan bank məhsullarını bu istiqamətdə ilk addım kimi dəyərləndirir və ümid edir ki, gələcəkdə daha çox təşəbbüslər irəli sürüləcək.




**"NIKOIL" YALNIZ CARİ HESAB AÇIR, KREDİT VERMİR**

Dinşünas yazar Elşad Miri isə "Nikoil" bank tərəfindən təklif olunan məhsulun İslam bankçılığının yalnız birinci mərhələsinə aid olduğunu deyir:"İslam bank sistemində 3 mərhələ var. "Nikoil"də yalnız cari hesab açılması məsələsi var. Onlar nə lizinq, nə də kredit verilməsinə daxil olmurlar".

***Fərəh Sabirqızı***


Əkrəm Əylisli keçənilki "Ədəbi Azadlıq" mükafatını təqdim edir

# Qısa siyahı açıqlandı

**AzadlıqRadiosunun "Oxu zalı" ədəbiyyat portalında keçirilən "Ədəbi Azadlıq-2011" hekayə müsabiqəsinin qısa siyahısı açıqlandı. Münsiflər Heyətinin 4 üzvü təxminən 150 hekayə arasından aşağıdakı əsərləri qısa siyahıya (onluğa) layiq biliblər (Əlifba sırası ilə verilir).**

**Anar Fərəcov** *"Yerevan azərbaycanlısının memuarları"*

**Azad Qaradərəli** *"Gilənar albalı olurmu?"*

**Babək Göyüş** *"Yaşıl qurbağanın çəhrayı daşı"*

**Jalə İsmayıl** *"Ülviyyə Heydərova"*

**Mənsurə Qaçayqızı** *"Qərar"*

**Mətləb Muxtarov** *"Araba Sahipinden Satılıktır"*

**Musa Əfəndi** *"Onları yol apardı"*

**Novruz Novruzov** *"Ritorik"*

**Rasət Pirisoyu** *"Xa..."*

**Rəhim Əliyev** *"Zabitəli kişinin arvadı"*

**Şahbaz Xuduoğlu** *"Doktor Cəmil"*

**Şəhriyar Hacızadə** *"Vəfalı Xoruzu Cehiz Apardı"*

**Tosif Həsənli** *"Divarlar"*

Onluğa düşmək üçün minimum balı 4 hekayə topladığı üçün onların hamısını qısa siyahıya daxil etmişik. Beləliklə, builki qısa siyahı şərti olaraq onluq adlanır və 13 hekayədən ibarətdir. Münsiflərə hekayələr müəllifləri göstərilmədən verilib. İndi müsabiqənin ikinci mərhələsi başlayır. Qısa siyahıdakı hekayələr "Oxu zalı"na yerləşdirilməklə oxucularımızın ixtiyarına verilir. Onlar mükafata layiq bildikləri hekayəyə səs verə bilərlər (AzadliqRadiosu.az saytının "Oxu zalı" bölümündə səs vermək olar ). Səsvermə 15 gün - mayın 18-nə qədər (18-i də daxil olmaqla) davam edəcək. Daha sonra müsabiqənin üçüncü mərhələsində həmin səsvermənin nəticələri münsiflərə təqdim ediləcək, onlar nəticələri nəzərə almaqla hekayələrə əlavə ballar verə bilərlər.

Oxucuların səsverməsi əsasında formalaşan reytinq sıralaması 4 səbətə bölünəcək. Hər bir münsif oxucuların səsverməsində 1-3-cü yeri tutan hekayələrdən birinə 7 bal, 4-6-cı yerləri tutan hekayələrdən birinə 5 bal, 7-9-cu yerləri tutan hekayələrdən birinə 3 bal, 10-13-cü yerləri tutan hekayələrdən birinə isə 1 bal verə bilər. Ən sonda bu əlavə ballarla münsiflərin müsabiqənin ilk mərhələsində həmin hekayələrə verdikləri ballar toplanacaq və qaliblər müəyyən ediləcək. Qısa siyahıya düşənlərə uğurlar arzu edir, müsabiqəyə qatılan müəllifləri isə növbəti müsabiqələrimizdə görməyə ümid edirik.

Keçənilki müsabiqədə olduğu kimi, bu il də müsabiqəyə təqdim edilmiş 50 seçmə hekayə kitab halında çap ediləcək. Baş mükafatı notebook, 2-ci və 3-cü mükafatları netbooklar olan müsabiqənin qaliblərinin adları iyunun əvvəlində Bakıda keçiriləcək mükafatlandırma mərasimində açıqlanacaq.

# Dünyada sonuncu yazı makinası fabriki baglandı



Dünyada yazı makinası istehsal edən sonuncu fabrik – Hindistanin Mumbay şəhərində fəaliyyət göstərən "Godrej and Boyce" 60 illik fəaliyyətinə son qoyub. Kompyuterlərin geniş yayılmasından sonra makinalar istifadədən çıxsalar da, son illərə qədər Hindistanda onlara hələ də tələbat qalırdı. Keçən il isə firmanın məhsuluna olan tələbat kəskin şəkildə düşüb, cəmi 800 makina satılıb. Ona görə də firma məcbur olur ki, istehsalı dayandırsın və ambarda qalan məhsulların satışını təşkil etsin. Hazirda firmanın cəmi 200 satılmayan makinası qalıb, onların da çoxu ərəb əlifbası ilə yazan makinalardır. Dünyada makinanın ilk kommersiya istehsalı 1867-ci ildə ABŞ-da olub.

## AzadliqRadiosu.az saytında həmçinin oxuyun



**Orxan Pamuk Azərbaycan ədəbiyyatı barədə suala nə cavab verdi?**



Natella Osmanlı: **"Biz ana dilini bilməyənlər sisteminin son qırıntılarıyıq"**



**Markesin kitabı üçün 1 milyon dollarından keçdi**



Mintac Elsevər: **"Mənim kimilərin sevgilisi olmur"**



**Nobelçinin "Xərçəng" və "SPİD" arasında seçimi**

# Ermənistan cəbhə xəttində itkilərdən danışır


Erməni əsgəri

**Dağlıq Qarabağda cəbhə xəttində baş verən atışma zamanı 3 erməni əsgəri ölüb.**

Bu haqda Xankəndindəki hərbi dairələr məlumat verib. Mayın 1-də tanınmayan «Dağlıq Qarabağ Respublikası»nın Müdafiə Nazirliyindən bildiriblər ki, ölən əsgərlərdən biri - Vazgen Baxşiyan aprelin 29-da, digər ikisi isə ondan sonrakı gün öldürülüb. İki əsgərin adı dəqiqləşdirilməyib. Atəşkəsin pozulmasına Azərbaycan tərəfinin səbəb olduğu bildirilib. Hadisəyə Ermənistanın Xarici İşlər Nazirliyi dərhal reaksiya verib. Ölüm hadisələrini pisləyib və Bakını kövrək atəşkəs rejiminin möhkəmləndirilməsinə yönəlmiş beynəlxalq səyləri sarsıtmaqda ittiham edib.

Aprelin 30-da verilən həmin bəyanatda deyilir ki, «bu cür hərəkət beynəlxalq ictimaiyyət tərəfindən çox sərt şəkildə pislənməlidir». Azərbaycan Xarici İşlər Nazirliyi də mayın 2-də buna reaksiya verib, ittihamları rədd edib. Nazirliyin sözçüsü Elman Abdullayev deyib ki, «Azərbaycan torpaqlarının 20 faizi Ermənistan silahlı qüvvələrinin işğalı altındadır. Erməni tərəfinin bu cür ittihamları adekvat deyil».

Ermənistan Müdafiə Nazirliyinə yaxın hərbi ekspert David Camalyan iddia edir ki, cavab olaraq 3 Azərbaycan əsgəri öldürülüb. Azərbaycanın Müdafiə Nazirliyi isə Azərbaycan tərəfdən heç bir itkinin olmadığını bildirib. Nazirliyin mətbuat xidmətinin əməkdaşı Teymur Abdullayev: «Cəfəngiyyatdır, yalan məlumatdır».

***Kəbiran Dilavərli***

# "Gürcüstanın Azərbaycanda iğtişaşlar salmaq planı barədə məlumatlar təxribatdır"

*Gürcüstan hökumətinin Azərbaycanda iğtişaşlar törətmək planı barədə xəbərlər təxribatçı qrupların işidir və məqsəd iki ölkə arasında münasibətləri korlamaqdır".*

ANS PRESS-in məlumatına görə, bunu jurnalistlərə açıqlamasında Prezident Administrasiyasının ictimai-siyasi məsələlər şöbəsinin müdiri Əli Həsənov Gürcüstan hökumətinin ABŞ-ın Bakıdakı səfirliyi ilə birlikdə Azərbaycanda iğtişaşlar törətmək cəhdləri ilə bağlı mətbuatda gedən yazılara münasibət bildirərkən deyib.


Əli Həsənov

# ABŞ səfirliyindən Cabbar Savalanla bağlı açıqlama


Cabbar Savalan

*Amerika Birləşmiş Ştatları səfirliyi narkotik maddə saxlamaq ittihamı ilə 2 il yarım azadlıqdan məhrum edilən gənc fəal Cabbar Savalanlının işini yaxından izləyib.*

Bunu AzadlıqRadiosuna səfirliyin mətbuat katibi Keith Bean deyib. Onun fikrincə, cənab Savalanlının «Facebook» şəbəkəsində etirazlara səsləyən şərhlər yerləşdirməsindən az sonra həbsi bəzi müşahidəçilərdə ona qarşı ittihamların həqiqiliyi və bu halda ədliyyə sisteminin müstəqilliyi ilə bağlı suallar doğurur: "Amerika Birləşmiş Ştatları Azərbaycanda demokratik qurumların və hüquq normalarının güclənməsini əzmlə dəstəkləyir. Ədliyyə orqanlarına müraciət edilir ki, Savalanlının apelyasiyasına Azərbaycanın hüquq və beynəlxalq öhdəliklərinə uyğun şəkildə baxılsın".

Cənab Bean qeyd edir ki, vətəndaşlarla onların hökumətləri arasında demokratiya mədəniyyətinin daha dərin inkişafının təməlini qoyan dialoqu təbliğ etmək üçün söz və toplaşma azadlığına hörmət vacibdir.


Sima Didar və Əlirza Fərşi

# Sima Didar Təbriz həbsxanasında

**Təbrizdə azərbaycanlı xanım fəal 26 yaşlı Sima Didarın ailəsi onun həbsxanada yeni ittihamlarla üzləşə biləcəyindən narahatdır. Onun həyat yoldaşı Əlirza Fərşi bildirir ki, azərbaycanlıların milli hüquqlarının səsləndirilməsi üstündə bu ilin martında tutulan xanımı ağır cinayətlər törədən, narkotik maddələr üstündə tutulan qadın məhbuslarla birlikdə saxlanır. O, qeyd edir ki, əslində xanımının həbs müddəti bu yaxınlarda başa çatır, amma adətən azərbaycanlı siyasi məhbusların həbs müddətini uzatmaq üçün onları içəridə müxtəlif şər-böhtanla daha çox saxlayırlar:**

2011-ci il martın 8-də isə Sima Didar başqa bir azərbaycanlı fəal Səid Mətipurun həbsxanada olan xanımı Ətiyə Tahirini ziyarət etmək üçün Zəncana getmək istəyir. Amma yolda onu saxlayıb, sənədlərini əlindən alıblar. Aprelin 16-da isə sənədləri üçün prokurorluğa gedərkən onu tutublar. İndi əgər həbsxanada başqa bir işlə bağlı onu ittiham etməsələr Sima Didar yaxın aylarda azadlığa buraxılmalıdır. Çünki onun əvvəlki həbs müddəti də hesablanmalıdır.

Əlirza Fərşi qeyd edir ki, həbsxanada olan xanımı ilə əlaqə saxlaya bilmir və şər-böhtanla onun həbs müddətinin uzadılacağından narahatdır. Bu yaxınlarda Mərənd şəhərinin küçələrində divarlara "Yardım edin, Sima Didar Təbriz zindanından azad olsun!" şüarlara yazılan elanlar vurulub. Bundan əvvəl Tehran və Təbrizdə də buna oxşar elanlar yayılıb. Sima Didarın vəziyyətini diqqətdə saxlamaq üçün bir qrup azərbaycanlı fəal BMT-yə də müraciət göndərib.

***Natiq Zeynalov***

# «Mən 2 uşaqlı evdar qadın idim”

## Eurovision.tv Ell və Nikki haqqında yazıb



**Azərbaycanı Eurovisionda təmsil edəcək Ell və Nikkinin Running Scared mahnısının məşqi olub. Onlar yarış günü geyinəcəkləri kostyumda olmayıblar. Mahnını ifa etməyə başlayanda bak vokalçılar Ell və Nikkinin qarşısında dayanırlar. Sonra onlar geri çəkilir – onların arxasından ifaçılar görünür. Səhnəyə bir neçə projektor işıq salır.**

**DÜMAĞ SƏHNƏ VƏ GÜCLÜ İŞIQ**

Arxadakı böyük LED ekrandan narıncı rəngdə xəfif işıqlar düşür. Musiqi gücləndikcə səhnə dümağ olur və projektorların işığı güclənir. Bu mahnı orta templi rok musiqisindən ilhamlanmış xəfif pop musiqisi kimi təsvir oluna bilər. Səhnədəki şou da bunu olduqca çox yaxşı əks etdirir. Musiqi yekunlaşanda isə işıqlar başlanğıc vəziyyətinə qayıdır. Sonda çoxlu priotexniklərdən istifadə olunur.

**«AMAN ALLAH, BURA NECƏ DƏ BÖYÜKDÜR»**

«Eurovision TV» də səhnədəki ilk məşqi izləyib. Nikki səhnəyə çıxanda heyrətini gizlətməyib. O, səhnənin ortasında dayanaraq bunları deyib: «Aman Allah, bura necə böyükdür. Ağlasığmazdır, fantastikdir. Mən şokdayam. Heç vaxt belə böyük səhnədə olmamışam».

Nikki deyib ki, onların ifasında müəyyən dəyişikliklər edilib: «Bilmirəm ifamız, hərəkətlərimiz necə olacaq. Çünki hələ də yeni ideyalar verilir». Duet oxumaq Nikki üçün yaxşı bir təcrübədir. Baxmayaraq ki, Eldarla onun arasında fərqlər var: «Duet çox yaxşıdır. Eldar çox yaxşı oğlandır. Düşünmək olardı ki, belə bir duet oxumaq çox çətin olacaq. Çünki o, ballada oxuyur, mən isə adətən, RB (ritm bluz) stilində oxuyuram. Lakin buna baxmayaraq, bizdə duet çox yaxşı alınır».

**«SƏHNƏYƏ ÇIXANDA HƏYƏCAN KEÇİRMİRSİNİZSƏ...»**

Mətbuat konfransında isə onlardan həyəcanlı olub- olmamaları haqqında soruşublar. Eldar deyib ki, «əgər siz səhnəyə çıxanda ifaçı kimi həyəcan keçirmirsinizsə, demək, heç nə hiss etmirsiniz».

Səhnə ilə bağlı isə Eldar deyib ki, Düseldorfdakı nəhəng səhnəni görəndə deməyə söz tapmayıb. Nigar isə deyib ki, Avropanın bu məşhur şousunda iştirak etmək çoxdankı arzusu idi, indi bu arzusuna çatıb.

**İKİUŞAQLI EVDAR QADIN**

«Mən 2 uşaqlı evdar qadın idim. Altı ay əvvəl bunu heç arzulaya bilməzdim». Nigar «həyat yoldaşınız başqa bir oğlanla romantik mahnı ifa etməzinə etiraz etmir ki» sualına isə belə cavab verib: «Əlbəttə ki, yox».

Sevdiyi mahnılarına gəldikdə Nigar 2009-cu ildə Böyük Britaniyanı təmsil etmiş Jadenin «It's My Time» mahnısını, Eldar isə 2005-də Chiaranın oxuduğu «Angel» mahnısının xoşuna gəldiyini bildirib.

# AzadlıqRadiosunda verilişlər:

*Unutmayın:* Siz bu verilişləri canlı dinləyə bilmirsinizsə, istənilən vaxt AzadliqRadiosu.az saytında onların səs yazılışlarına qulaq asa bilərsiniz. Bu, elə də çətin deyil.

| | |
|---|---|
| **İşdən sonra** | **14-24** |
| **Can Bakı** | **İz** |
| **Xüsusi reportaj** | **Panorama** |
| **Qaynar xətt** | **Qafqaz Qovşağı** |
| **Həmyerli** | **Oxu zalı** |
| **Tanınmışlar** | **Hər kəsin haqqı var** |
| **Şəffaflıq** | **Təbriz Ekspress** |

## Daimi rubrikalar




# “Simsiz teleqraf”

**PORTUQALİYANIN DA DÖVLƏT BAYRAĞI KÜLƏYƏ DÖZMÜR**



04.05.2011. Lissabonda bayraq meydanı.
Göndərdi: Altay Quliyev

Sizdə də maraqlı video, foto və ya səs yazısı varsa bizə göndərin. Materialı kompyuterinizdən yükləmə səhifəsinə daxil olmaqla, yaxud MMS kimi mobil telefondan yollaya bilərsiniz. Ehtiyac varsa, anonimliyi təmin edirik.

**Azərbaycandan:** (050) 213-56-30,

**Xaricdən:** (+420) 602 517 052

**Görüntüləri elektron poçtla da yollamaq olar:**
efir@azadliqradiosu.az

# AzadliqRadiosu.az®

## HotBird $13^{0}$E

**Kanalın adı**
**Radio Free Europe/Radio Liberty**
**Pol:** V
**Tezlik:** 12.226 Ghz
**Sürət:** 27.500 MS/s

## 24 saat

$42^{0}$ E

**Kanalın adı**
**Azadliq VOA Azeri**
**Pol:** H
**Tezlik:** 11.862 Ghz
**Sürət:** 27.500 MS/s

## Qısa Dalğa

**20-21:00** **SW** 9.40 və 12.00 Mhz

## Verilişlərin vaxtı:

| | |
|---|---|
| Səhər proqramı | $08^{00}$-$10^{00}$ |
| Günorta proqramı | $12^{00}$-$13^{00}$ |
| Təkrarlar | $15^{00}$-$16^{00}$ |
| İşdən sonra | $17^{00}$-$19^{00}$ |
| Kontekst | $20^{00}$-$21^{00}$ |
| Gecə proqramı | $22^{00}$-$24^{00}$ |

## Bizimlə əlaqə:

**E-mail:** efir@AzadliqRadiosu.az
**Qaynar Xətt:** **436-77-41**

**SMS:** 050/ 744-10-17
**MMS:** 050/ 213-56-30

Azərbaycan Respublikası Ədliyyə Nazirliyində mətbu nəşrlərin reyestrinə daxil edilib, №3080

**"Fərqli düşüncə" jurnalının xüsusi buraxılışı**

Təsisçi və redaktor: Ş.A.Namazov

Bülleten redaksiyada səhifələnib, "Qanun" mətbəəsində çap olunub
Mətbəənin ünvanı: Bakı, Tibilisi prospekti, 2-ci Alatava, 9

Redaksiyanın ünvanı: Bakı, F.Şahbazov küçəsi, 18
email: ferqlidergi@gmail.com
Tiraj: 10000 nüsxə
Pulsuz